# QARABAĞDA YENİ SALINACAQ VƏ MÖVCUD NAR BAĞLARINDA FİTOSANİTAR VƏZİYYƏT

**Afaq Həsənova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, afaghasanovah@gmail.com*

Nar qədim tarixə malik meyvə bitkisidir. Nar təsərrüfatı gəlirlərində artıma nail olmaq üçün yüksək keyfiyyətli məhsul yetişdirmək lazımdır. Lakin bəzi xəstəlik və zərərvericilər səbəbi İlə məhsuldarlıq və keyfiyyət aşağı düşür. Azərbaycanda nar bitkisinə zərər verən 53 növə yaxın həşərat qeydə alınmışdır. Bunlara tək halda yaşayan çəyirtkələr, adi danadişi, uzunquyruq şala, müxtəlif növ yastıcalar, müxtəlif növ gənəcikləri misal göstərmək olar. Narın başlıca zərərvericiləri nar mənənəsi və nar meyvəyeyənidir. Vaxtilə hər iki zərərverici Qarabağ zonasında çox geniş yayılmışdı. Nar mənənəsi əvvəl nar ağacının cavan zoğları, yarpaqları, sonra isə qönçə, çiçək və meyvələri üzərinə daraşaraq onların şirəsini sorur. Nəticədə bitkinin böyümə və inkişafı zəifləyir və meyvənin əmtəəlik keyfiyyəti aşağı düşür. Nar mənənəsi ilə ən çox Nazik qabıq, Qırmızı qabıq, Azərbaycan gülöyşəsi və Çəhrayı gülöyşə sortları, ən az isə Şirin nar və VİR-1 sortları yoluxur. Nar meyvəyeyəni ilə ən çox Qırmızı qabıq, Nazik qabıq, Azərbaycan gülöyşəsi, Çəhrayı gülöyşə və Mələs, ən az isə Şirin nar və VİR-1 sortları zədələnir. Nar meyvəyeyəninin zərərli fəaliyyəti nəticəsində bəzi sortların meyvələri 50%-ə qədər zədələnə bilir. Bu da məhsul itkisinə və əmtəəlik dəyərinin azalmasına gətirib çıxarır.

Qarabağ torpaqları uzun illər düşmən işğalında olduğu üçün nar bağları baxımsız qalmışdır. Belə olan halda bitkiyə zərər verən orqanizmlərin fəaliyyəti öyrənilməmişdir. Nar bağlarında zərərvericilərin yayılma intensivliyini, vurduğu zərəri öyrənmək və yeni salınacaq nar bağlarında fitosanitar vəziyyəti qiymətləndirmək üçün işğaldan azad olunmuş torpaqlarımızda marşrut müşahidələrinin aparılması məqsədəuyğundur.